**Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına dəyişikliklər və əlavələr edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanının icrası ilə bağlı əlavə tədbirlər barədə» Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 16 yanvar tarixli 700 nömrəli Fərmanının 4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 aprel tarixli 59 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 4 (II kitab), maddə 203; 2003-cü il, № 6, maddə 342; 2008-ci il, № 1, maddə 37) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklər tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blanklarının ciddi hesabat sənədi kimi uçotu və tətbiqi Qaydaları»nda ismin müvafiq hallarında «Xarici İşlər Nazirliyi və öz səlahiyyətləri daxilində Dövlət Miqrasiya Xidməti» sözləri ismin müvafiq hallarında «Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi» sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 mart tarixli 25 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 3, maddə 192; 2008-ci il, № 1, maddə 37) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün vizaların müddətlərinin uzadılması Qaydaları»na aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

2.1. 9-cu, 10-cu və 11-ci bəndlərdə «Dövlət Miqrasiya Xidməti» sözləri «Xarici İşlər Nazirliyi» sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 2-1-ci – 2-6-cı bəndlər əlavə edilsin:

«2-1. Xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşları və onların ailə üzvləri, həmçinin Azərbaycan Respublikasına xüsusi diplomatik missiya ilə səfər edən əcnəbilər üçün vizaların müddətlərinin uzadılması Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən həyata keçirilir.

2-2. Viza əsasında Azərbaycan Respublikasına gələn digər əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün vizaların müddətlərinin uzadılması həmin şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılmasına dair Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin qərarı əsasında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən həyata keçirilir.

2-3. Bu Qaydaların 2-2-ci bəndində göstərilən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması üçün mövcud vizanın müddətinin qurtarmasına ən azı 7 iş günü qalmış müvəqqəti olma müddətinin uzadılmasına dair qərarın alınması üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər.

2-4. Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinə müraciət edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı sənədləri təqdim edirlər:

a) müvəqqəti olma müddətinin uzadılması barədə ərizə (anket) – 1 ədəd;

b) pasport və ya vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənəd;

c) müvəqqəti olma müddətinin uzadılmasının məqsədi göstərilməklə qəbul edən tərəfin (idarə, hüquqi və ya fiziki şəxs) yazılı vəsatəti;

ç) vəsatət təqdim edən hüquqi şəxsin nizamnaməsi və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət qeydiyyatından keçməsi barədə şəhadətnaməsinin surəti, qəbul edən fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti;

d) Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyata alınmasını təsdiq edən sənədin surəti.

2-5. Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılmasına dair əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciətinə 2 iş günü ərzində Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən baxılmaqla müvafiq qərar çıxarılır.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması məsələsi həll edilərkən, hər konkret halda onların Azərbaycan Respublikasında qalmasının səbəbləri araşdırılır.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin qərarında müvəqqəti olma müddətinin uzadılması üçün müraciət etmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciətinin müsbət həll edilməsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda rədd edilməsi əsaslandırılmalı və bu qərarın surəti əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilməlidir.

2-6. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılmasına dair qərar verildikdə, həmin qərarın surəti 1 iş günü ərzində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə göndərilir.»;

2.3. 3-cü bənd aşağıdakı redaksiyada verilsin:

«3. Bu Qaydaların 2-1-ci bəndində göstərilən şəxslər vizaların müddətlərinin uzadılması üçün mövcud vizanın müddətinin qurtarmasına ən azı 3 iş günü qalmış Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə müraciət etməlidirlər.»;

2.4. aşağıdakı məzmunda 3-1-ci bənd əlavə edilsin:

«3-1. Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılmasına dair qərarı almış şəxslər vizaların müddətlərinin uzadılması üçün mövcud vizanın müddətinin qurtarmasına ən azı 4 iş günü qalmış Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə müraciət etməlidirlər.»;

2.5. 5-ci bənd üzrə:

2.5.1. «Əcnəbilər və vətəndaşlığı olmayan» sözləri «Bu Qaydaların 2-1-ci bəndində göstərilən» sözləri ilə əvəz edilsin;

2.5.2. «b» yarımbəndində «(idarə, hüquqi və ya fiziki şəxs)» sözləri «(Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik, konsulluq və ya beynəlxalq təşkilatların nümayəndəliyi)» sözləri ilə əvəz edilsin;

2.6. aşağıdakı məzmunda 5-1-ci bənd əlavə edilsin:

«5-1. Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılmasına dair Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin qərarını almış şəxslər vizaların müddətlərinin uzadılması üçün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə aşağıdakı sənədləri təqdim edirlər:

a) pasport və ya vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənəd;

b) viza müddətinin uzadılması barədə ərizə (anket) – 1 ədəd;

c) fotoşəkil – 1 ədəd;

ç) dövlət rüsumunun ödənilməsi barədə qəbz;

d) Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılmasına dair qərarın surəti.»;

2.7. 10-cu bəndin birinci cümləsində «və Qanunda nəzərdə tutulmuş hallarda imtina üçün əsas olduqda və viza müddətlərinin uzadılması məqsədəuyğun hesab edilmədikdə, şəxslərin viza müddətlərinin uzadılmasından imtina edir» sözləri «, Qanunda nəzərdə tutulmuş hallarda və ya viza müddətlərinin uzadılmasından imtina üçün hər hansı əsas müəyyən edildikdə, viza müddətlərinin uzadılmasından imtina edir və bu barədə həmin şəxslərə və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə məlumat verir» sözləri ilə əvəz edilsin.

3. «Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına və sərəncamına əlavələr və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 11 yanvar tarixli 2 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 1, maddə 37) 2-ci və 5-ci bəndləri çıxarılsın.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 7 may 2008-ci il
№ 110